Ankara



**Türkiyə-Azərbaycan əlaqələrinə verdiyi töhfələrə görə "Mərmərə Qrupu" Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri, professor Akkan Suver "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalına layiq görülüb.**

# Türkiyə-Azərbaycan qardaşlığı sarsılmazdır

Azərbaycanın Türkiyədəki səfirliyində keçirilən tədbirdə Türkiyə Prezidentinin baş müşaviri Yalçın Topçu, Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun (TADİV) rəhbəri, professor Aygün Attar, Qazaxıstanın Türkiyədəki səfiri Yerkebulan Sapiyev, Türkiyə parlamentinin deputatları, diplomatlar, alimlər, mütəxəssislər və media nümayəndələri iştirak ediblər.

"Mərmərə Qrupu" Strateji və Sosial Araşdırmalar Vəqfinin sədrinə ali mükafatı ölkəmizin Ankaradakı səfiri Rəşad Məmmədov təqdim edib.

Tədbirdə çıxış edən Rəşad Məmmədov Azərbaycan-Türkiyə əlaqələrinin möhkəmlənməsində Akkan Suverin çoxillik fəaliyyətindən və onun ümummilli lider Heydər Əliyevlə isti münasibətlərindən bəhs edib.

Səfir qeyd edib ki, bu gün yalnız iki Türkiyə vətəndaşı "Heydər Əliyevin 100 illiyi" (1923-2023) yubiley medalı ilə təltif olunub ki, onlardan biri də Akkan Suverdir. Səfir Azərbaycan rəhbərliyinin "Mərmərə Qrupu" Strateji və Sosial Araşdırmalar Vəqfi tərəfindən təşkil edilən tədbirlərə xüsusi önəm verdiyini diqqətə çatdırıb və Prezident İlham Əliyevin Vəqfin təşkil etdiyi Avrasiya İqtisadi Forumunun iştirakçılarına hər il ünvanladığı müraciətləri xatırladıb.

Akkan Suver ona göstərilən etimada görə Prezident İlham Əliyevə öz təşəkkürünü bildirib: "Bu medal mənim üzərimə böyük bir məsuliyyət qoyur, insanlara daha çox xidmət etmək, daha çox çalışmaq və daha yaxşı layihələrə imza atmaq".

O, bu mükafatı Azərbaycan dövlətinin və şəxsən Prezident İlham Əliyevin yüksək etimad və diqqətinin göstəricisi kimi qiymətləndirib: "Azərbaycan lideri bir daha nümayiş etdirdi ki, Türkiyədəki prosesləri diqqətlə izləyir. "Heydər Əliyevin 100 illiyi" (1923-2023) yubiley medalı mənim və rəhbəri olduğum qurum üçün xüsusi şərəf və məsuliyyətdir".




Bu məsuliyyət daha çox çalışmaq və bəşəriyyətə xidmət sahəsində daha məhsuldar layihələr həyata keçirməkdir. Bu gün bizi burada bir araya gətirən məsuliyyət dünəndən bu günə mədəniyyətin, sivilizasiyanın varisliyidir. Bu miras Türkiyə ilə Azərbaycan arasında yeni mərhələyə qədəm qoyur. Böyük qürurla bildirmək istəyirəm ki, bu medal Türkiyədə iki nəfərə verilib. İlk öncə Azərbaycan-Türkiyə Parlamentlərarası Dostluq Qrupunun sədri Şamil Ayrıma, sonra isə mənə təqdim edildi. Onu təbrik edirəm və fəxrlə bildirirəm ki, Şamil Ayrım həm millət vəkili, həm də "Mərmərə Qrupu" Vəqfinin üzvüdür. Hər iki medalın "Mərmərə Qrupu" Vəqfinə verilməsi bizə həm qürur, həm də məsuliyyət verir".

A.Suver xatırladıb ki, rəhbərlik etdiyi fond 28 ildir ki, Türkiyə, Azərbaycan və dünyanın bir çox ölkələrinin maraqlarının inkişaf etdirilməsinə töhfə verən Avrasiya İqtisadi Forumlarını uğurla təşkil edir.

Vəqf sədri vurğulayıb ki, "Mərmərə Qrupu" Strateji və Sosial Araşdırmalar Vəqfi Türkiyə və Azərbaycanın daha da yaxınlaşması üçün bütün səylərini artırmağa hazırdır. Türkiyə və Azərbaycan əməkdaşlığı sarsılmazdır. Qardaşlıq əlaqələrinin möhkəmləndirilməsinə dəstək olmaq isə bizim üçün şərəfdir.

Tədbir "Mərmərə Qrupu" Strateji və Sosial Araşdırmalar Vəqfinin fəaliyyəti ilə bağlı müzakirələrlə davam edib. Sonda Akkan Suverin fəaliyyətinə həsr olunmuş film nümayiş etdirilib.

**Esmira YAZKAN ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə üzrə müxbiri.**